# Ağsuda sənaye zonasının yaradılması istiqamətində mühüm işlər görülür



***❒ Xaraktercə zəhmətsevər olan ağsulular, sözün həqiqi mənasında, bütün aqrar sahələrdə uğur qazana bilirlər. Burada "qazanırlar" deyil, məhz "qazana bilirlər" yazmağımız təsadüfi deyil. Çünki elə rayonlar var ki, spesifik, özünəməxsus kənd təsərrüfatı ilə məşğul olur. Ağsuda isə, özünəməxsusluq, demək olar ki, yoxdur. Burada pambıq da əkilir, tütün də, taxılçılıq da inkişaf edib, narçılıq da, üzümçülük də var, baramaçılıq da, heyvandarlıq da ənənəvidir, arıçılıq da. Üstəlik, bu rayonun təkcə mədəniyyətində deyil, iqtisadiyyatında da özünəməxsus çəkisi olan el sənətkarlığı ənənəsi də var, turizm imkanları da. Bundan başqa, jurnalistlərin leksikonundakı "Zamanın səsinə səs vermək" ifadəsini də ağsulular barədə qətiyyətlə səsləndirmək olur. Yəni, Ağsu rayonunun bu günü barədə söz açarkən, konkret hansısa bir sahənin üzərində dayanmaq mümkün deyil.***




Rayon icra hakimiyyətinin başçısı Ənvər Seyidəliyevlə söhbətimizdə də bu çoxşaxəliliyi yada saldıq. Ancaq Ənvər müəllim dedi ki, həmin çoxşaxəlilik Ağsu camaatına məxsusdur. Rayon icra hakimiyyəti kimi isə bizim fəaliyyətimizin cəmi iki istiqaməti var: dövlətin qarşıya qoyduğu vəzifələrin layiqincə yerinə yetirilməsi və rayon əhalisinə yüksək səviyyədə xidmət etmək. Şükürlər olsun ki, hər iki istiqamətdə işlərimiz dövlətin qarşıya qoyduğu səviyyədə gedir. Əsas odur ki, işimizi günün tələblərinə uyğun şəkildə qura bilirik.

Günün tələbləri demişkən, yada salaq ki, Azərbaycan Prezidenti İlham Əliyevin avqustun 4-də Qax rayonunda barama, tütün və fındıq istehsalının inkişafı məsələlərinə dair respublika müşavirəsindəki nitqindən irəli gələn vəzifələrin icrası ilə bağlı Ağsu rayonunda da yığıncaq keçirilib. Yığıncaqda rayon icra hakimiyyəti başçısının şəhər və kənd inzibati ərazi dairələri üzrə nümayəndələri, yerli bələdiyyə sədrləri, rayon ictimaiyyətinin nümayəndələri, baramaçılıqla məşğul olan təsərrüfat rəhbərləri və kümçülər, ağsaqqallar iştirak ediblər.

Rayon icra hakimiyyətinin başçısı Ənvər Seyidəliyev çıxış edərək, ölkə başçısı tərəfindən imzalanmış sosial-iqtisadi inkişafla bağlı dövlət proqramlarından, aqrar sahənin orta və uzunmüddətli inkişaf strategiyasından irəli gələn vəzifələrin icrasından bəhs edib, kənd təsərrüfatı məhsullarının istehsalından əldə olunan gəlirlərin istehsalçıların rifah halının yaxşılaşdırılmasına öz töhfəsini verdiyini vurğulayıb.

Yığıncaqda qeyd edilib ki, 1969-cu ildə ulu öndər Heydər Əliyevin siyasi hakimiyyətə gəlişi Azərbaycanın bütün rayonları kimi, Ağsunun da sosial-iqtisadi problemlərinin həllində, kənd təsərrüfatının dirçəldilməsində dönüş nöqtəsi olmuşdu. Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi sovet dönəmində rayonda heyvandarlıq, pambıqçılıq, üzümçülük sahələri ilə yanaşı, baramaçılıq da ən önəmli sahələrdən birinə çevrilmişdi. Ağsu rayonu barama istehsalı sahəsində uğurlu göstəriciləri ilə fərqlənmiş, 1986 - cı ildə rayonda 79 tondan çox yüksək keyfiyyətli barama istehsal edilərək dövlətə təhvil verilmişdi. 1986-1992-ci illərdə isə ümumilikdə 510 tondan çox barama yetişdirilmişdi.



Söhbətimizdə həmin yığıncaqda müzakirə edilmiş məsələlərə də toxunan Ənvər müəllim xatırlatdı ki, baramaçılıq sahəsinin inkişaf etdirilməsi, rayonun əvvəlki illərdəki şöhrətinin qaytarılması istiqamətində müvafiq iş aparılır. Ötən il rayonda 33 min ədəd, o cümlədən Çin Xalq Respublikasından gətirilən 30 min ədəd, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin dəstəyi ilə 3 min ədəd yerli tut tingi əkilib. Tut tinglərinə lazımi aqrotexniki qulluq göstərilir və onların qorunması təmin olunur. Cari ildə 54 kümçüyə 2660 qram ipəkqurdu verilib, 5492 kiloqram barama tədarük edilib. Barama tədarükünün həcmi ötən ilə nisbətən 3,2 dəfə çox olub. Aratlı Curuğlu kənd sakini Kamil Əliyev daha yüksək nəticə əldə edib. O, cari ildə 278 kiloqram barama təhvil verib.

Rayon rəhbəri mütəxəssislərə və fermerlərə tapşırıb ki, ipəkqurdlarının rayona gətirilməsi zamanı keyfiyyətinə və çəkisinə xüsusi nəzarət təmin olunmalıdır. İpəkqurdlarının bəslənilməsi üçün yerlərin seçilməsinə xüsusi diqqət yetirilməli və bu iş səriştəsi olan kənd sakinlərinə verilməli, həmçinin barama qəbulu məntəqəsinin inşa edilməsi üçün müvafiq torpaq sahəsi seçilməlidir. Bundan başqa, yığıncaqda yeni tut ağaclarının əkilməsi və becərilməsi üçün tədbirlərin görülməsindən, mövcud tut ağaclarının keyfiyyətli, aqrotexniki qaydalara uyğun budanmasından və ipəkqurdları bəslənərkən onların ciddi mühafizəsinin təşkil olunmasından danışılıb və müvafiq şəxslərə tapşırıqlar verilib. Eləcə də, 2018-ci ildə yüksək nəticə əldə edilməsi məqsədi ilə mütəxəssislərdən ibarət xüsusi komissiya yaradılması haqqında və növbəti mövsümədək bu sahədə olan çətinliklərin aradan qaldırılması istiqamətində müvafiq tapşırıqlar verilib.

Həmsöhbətim bildirdi ki, regionların sosial-iqtisadi inkişafını təmin edən dövlət proqramlarının ikisi tam, üçüncünün isə ilk üç ili uğurla başa çatdırılıb. Bu müddətdə yeni iş yerlərinin açılması, tikinti, quruculuq və abadlıq işləri diqqət mərkəzində saxlanılıb, sosial problemlərin həllinə qayğı göstərilib. Yollar, küçə və meydanlar asfaltlaşdırılıb və abadlaşdırılıb. Yeni müəssisələr, çoxsaylı sahibkarlıq obyektləri fəaliyyətə başlayıb, nəticədə yeni iş yerləri açılıb, əhalinin məşğulluğu təmin edilib.

Rayon taxılçıları bu il qarşıya qoyulan vəzifələrin öhdəsində bacarıqla gəliblər. Əkilmiş 34 min hektara qədər sahədən 72 min 179 ton məhsul toplanılıb. 2 min 500 hektar sahədə pambıq, 32, 2 hektar sahədə yonca,102 hektar sahədə şəkər çuğunduru, 168 hektar sahədə kartof, 767,2 hektar sahədə qarğıdalı, 37 hektar sahədə dənli və paxlalı bitkilər, 2, 7 hektar sahədə digər bitkilər əkilib. Məhsul toplanışı davam edir. Bundan başqa, 5 hektar torpaq sahəsi olan, müasir tələblərə cavab verən, yeni texnologiyalar əsasında istixana kompleksi tikilərək istifadəyə verilib.

İlin əvvəlindən bəri bir sıra mühüm obyektlərdə tikinti – quraşdırma işləri davam etdirilib. Məsələn, "Az–qranata" MMC üçün yeni şərabsüzmə sexi və soyuducu anbarın, şəhərin kanalizasiya sisteminin təmizləmə qurğusunun, "Süsən aqro" MMC üçün Gəgəli qışlağı adlanan ərazidə kənd təsərrüfatı məhsulları istehsalı kompleksinin tikinti işləri davam etdirilir. Qarabağ müharibəsi əlilləri üçün 13 yerdə, hər biri 3 otaqdan ibarət fərdi yaşayış evlərində tikinti – quraşdırma işləri davam etdirilir. Şəhərin müxtəlif məhəllələrində tikintisi yarımçıq qalmış sahibkar obyektlərinin başa çatdırılması, binaların fasad hissələrinin müasir tələblərə uyğun üzləndirilməsi, çoxmənzilli yaşayış binalarında təmir – bərpa işlərinin aparılması istiqamətində işlər davam etdirilir. Cari ildə rayonun Çaparlı-Kəndoba-Cəlayir avtomobil yolunun yenidən qurulması istiqamətində tikinti işləri davam etdirilmişdir.

Prezidentin bu il martın 17-də imzaladığı sərəncama əsasən rayonun 19 kəndində içməli su təchizatı sisteminin qurulması üçün müvafiq layihələrin hazırlanmasına və tikintisinə başlanılıb. Layihənin bir hissəsində isə hazırlıq işləri görülür.

Daha bir xoş xəbər. Ağsuda Sənaye zonasının yaradılması istiqamətində müvafiq işlər görülməkdədir. Belə ki, sənaye zonası üçün Ağsu-Kürdəmir şose yolunun 7-ci kilometrliyində Dövlət Torpaq Fondundan 10 hektar ərazi ayrılıb, "Azərtikinti-İnvest" şirkəti tərəfindən parkın baş planı hazırlanıb və razılaşdırılıb. Layihənin həyata keçirilməsi üçün şirkət tərəfindən biznes planının 95 faizi, həmçinin istehsal sahələri üçün hesabatlar hazırlanıb, beynəlxalq partnyorlarla təchizat üçün şirkətlərlə niyyət sazişləri imzalanıb. Maliyyə şirkəti ilə hüquqi məsələlər araşdırılaraq, niyyət memorandumunun imzalanması planlaşdırılır. İlkin mərhələdə sənaye parkında mürəbbə və cem fabriki, yun fabriki, biyan kökü fabriki, pendir istehsalı müəssisəsi tikilməsi nəzərdə tutulur. Tərəvəz məhsulları istehsalının genişləndirilməsi üçün "Sahil" firması tərəfindən Pirhəsənli bələdiyyəsi ərazisində 6 hektar sahədə yeni istixana kompleksi tikintisinə başlanılıb, yaxın müddətdə məhsul istehsalına başlanılacaq. Bundan əlavə, Bakı şəhər sakini, fiziki şəxs Rauf İslamov tərəfindən ət və süd məhsullarının istehsalı ilə məşğul olmaq üçün yeni ferma tikintisinin aparılması planlaşdırılır.





Davam edən işlər çoxdur. Məsələn, Ərəbsarvan və Növcü bələdiyyələri ərazisində mövcud heyvandarlıq komplekslərinin yenidən qurulması istiqamətində müvafiq işlər görülür. M.Ə.Rəsulzadə küçəsində yağış sularının ötürülməsi üçün drenaj qurğusu tikilir, Bakı - Şamaxı - Yevlax yolunun Ağsu şəhəri ərazisindən keçən hissəsində, Qəhrəmanlıq parkında, Heydər Əliyev Seyrəngahında, mədəniyyət və istirahət parkında abadlıq və bərpa işləri aparılır. Eyni zamanda, Melioratorlar qəsəbəsində yeni istirahət parkı, mərasim zalı tikilir.

Əhaliyə göstərilən xidmət sahələrində də yeniləşmə və müasirləşdirmə işləri aparılır. Məsələn, rayonun elektrik təsərrüfatında yenidənqurma işləri davam etdirilir. Elektrik şəbəkənin balansında olan elektrik verilişi xətlərində 21 kilometrdən artıq əsaslı, 29,7 kilometr məsafədə cari təmir işləri görülüb. Gəgəli kəndində 100 ədəd, Padar kəndində 70 ədəd, Abasxanlı kəndində 40 ədəd, Kəndoba kəndində 25 ədəd və digər kəndlərdə 100-ə yaxın dayaq yenisi ilə əvəz olunub.



Son illər rayon əhalisinin, sahibkarlıq obyektlərinin idarə, müəssisə və təşkilatların təbii qaz təminatının bərpası və yenidən qurulması istiqamətində zəruri tədbirlər həyata keçirilib. Bu isə rayonun qaz təsərrüfatının yenidən qurulması, eləcə də təbii qazın istehlakçılara çatdırılması zamanı yol verilən normadan artıq qaz itkilərinin qarşısının alınması və qazpulunun yığılması sahəsində uğurlar qazanılmasına səbəb olub. Hazırda qaz alan yaşayış məntəqələrində istehlakçıların təbii qazla təchizatında fasiləsizliyin təmin edilməsi məqsədilə start verilmiş əsaslı yenidənqurma işləri aparılır. Koroğlu küçəsində yaşayan abonentlərin təbii qaz verlişinin yaxşılaşdırılması məqsədilə həmin küçəyə quraşdırılmış qaz tənzimləyici şkaf yenisi ilə əvəz olunub, həmçinin rayonun Padar kəndində istismara yararsız, korroziyaya uğramış 68 metr metal boru istismardan silinib və istismara yararlı demontaj borularla əvəz olunub.

Suvarma sistemləri idarəsinin istismar tədbirləri planına uyğun təsərrüfatlararası və təsərrüfadaxili suvarma kanalları, hər il olduğu kimi, bu il də lildən təmizlənib. Sel və daşqına qarşı mübarizə məqsədilə Ağsuçayda, Girdimançayda və Nazirçayda 115 min kubmetr çay məcrası təmizlənib, 310 min kubmetr daş-beton bənd təmir olunub. Hidrotexniki qurğulardan 41- i cari və əsaslı təmir olunub. Şəhər ərazisindən keçən Kötəl və Alçapan kanalları lildən, Maşınqolu, Ələbbas kanalı və digər kanallar kol-kosdan təmizlənib.

Ənvər müəllim söhbətimizi belə tamamladı: "Əminəm ki, Ağsu rayonunda görülən sosial-iqtisadi, tikinti-abadlıq və quruculuq işlərinin tempi ölkəmizdə gedən ümumi işlərin ahənginə uyğun olaraq bundan sonra da davam etdiriləcək və dövlət başçısının rəhbərliyi altında qazanılan uğurları öz həyatında daha qabarıq hiss edən ağsulular qarşıdakı aylarda da dövlətimizin geniş miqyaslı iqtisadi strategiyayasının həyata keçirilməsinə öz töhfələrini verəcəklər".

… Bax belə. 1967-ci ilə qədər şəhər tipli qəsəbə adlanan, həmin ildə isə şəhər statusu verilmiş Ağsu barədə demək istədiyimiz çoxsaylı fikirlərin cüzi bir hissəsini qələmə aldıq. Amma şair dostum, mərhum Sabir Sarvan Ağsu şəhərinin 50 illiyi münasibətilə yazacağı şeirdə nələrdən söz açacaqdı, bilmirik.

Bir dəfə Sabirə demişdim ki, nə üçün Ağsu haqqında yazmırsan? Cavab vermişdi ki, necə yazım, Ağsu min illərin Ağsusudur, mən isə əlli ilin Sabiri. Mən ona deyəndə ki, qabaqdan sənin 60 illiyin gəlir, Ağsuya şəhər status verilməsinin isə 50 illiyi, demişdi , bax, o münasibətlə yazaram. Çox təəssüf!

Amma ötən həftə dostlardan eşitdim ki, ağsulu gənc şairlərin şeirlər kitabı nəşr olunub. Çox sevindim. Yəni həyat davam edir!

***İlqar HƏSƏNOV,***
***"Xalq qəzeti"***